**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# BİZNES MÜHİTİNİN YAXŞILAŞDIRILMASI VƏ İXRACIN TƏŞVİQİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

İxtisas: 5308.01 – Ümumi iqtisadiyyat

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Ramil Əlöysəd oğlu Əsgərov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Azərbaycan Dövlət Aqrar Universitetinin “Aqrobiznes, menecment və marketinq” kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, dosent
**Anar Fazil oğlu Abbasov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, dosent
**Arzu Nəcəf oğlu Həsənov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Mahir Həmzə oğlu Zeynalov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Azər Maarif oğlu Pənahov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________
AMEA-nın həqiqi üzvü,
iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: ____________
iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ____________
iqtisad elmləri doktoru, professor
**Elşən Əli oğlu İbrahimov**

# TƏDQİQAT İŞİNİN SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İqtisadiyyatın sahə və ərazi kəsimlərinin dayanıqlı inkişafının təmin edilməsi dünya iqtisadiyyatının qloballaşdığı müasir şəraitdə mühüm əhəmiyyətə malikdir. İqtisadiyyatın sahə və ərazi kəsimlərində yarana bilən zərərli təmayüllərin aradan qaldırılması iqtisadi təhlükəsizliyinin təmin edilməsinin başlıca ilkin şərtlərindən biri hesab olunur. Müasir şəraitdə iqtisadiyyatda azad rəqabət və biznes mühitinin formalaşdırılması davamlı inkişafın və ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində mühüm rola və yerə malikdir. Əlverişli biznes mühitini formalaşdırmadan iqtisadiyyatda və eləcə də onun həssas sahələrində səmərəli təsərrüfat fəaliyyəti həyata keçirmək mümkün olmur. İqtisadiyyatda əlverişli biznes mühiti mülkiyyət mənsubiyyətindən asılı olmayaraq əmtəə istehsalçılarının və xidmət qurumlarının resurslara çıxış imkanlarının yaxşılaşdırılması baxımdan mühüm strateji əhəmiyyət kəsb edir.

Ölkə iqtisadiyyatının neft sektoru dünyada enerji təhlükəsizliyinin təmin olunmasında önəmli rol oynadığından və bu sahəyə irihəcmli investisiya qoyulduğundan daha çox beynəlxalq bazar konyunkturunun təsiri altında inkişaf edir. Bu sahənin modernləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər eyni zamanda sahənin biznes cəlbediciliyinin yüksəldilməsinə və biznes mühitinin yaxşılaşdırılmasına əlverişli şərait yaratmışdır. Lakin iqtisadiyyatın qeyri-neft sektorunda obyektiv və subyektiv səbəblər nəticəsində neft sektorundan fərqli olaraq o qədər də əlverişli və səmərəli xarakter daşıyan biznes mühiti formalaşmamışdır. Bu baxımdan aqrar sahə və o cümlədən kənd təsərrüfatını xüsusi qeyd etmək olar.

Məlum olduğu kimi, iqtisadiyyatın qeyri-neft sektoru neft və onunla qarşılıqlı əlaqəyə malik sahələr istisna olmaqla, digər sahələri özündə birləşdirir. Qeyri-neft sektoru sənayenin isə xammala olan ehtiyaclarının qarşılanmasında mühüm rol oynayır. Qida sənayesi iqtisadi inkişafın müxtəlif mərhələlərində əhalinin ehtiyaclarının qarşılanmasında mühüm rol oynamaqla, xüsusilə, qloballaşma

şəraitində iqtisadi təhlükəsizliyə təsir göstərən sahə kimi səciyyələnir. Bu baxımdan biznes mühitinin yaxşılaşdırılması, ixrac mexanizminin təkmilləşdirilməsi, əmtəə istehsalçılarının və emal sənayeçilərinin iqtisadi resurslara çıxış imkanlarının genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. İqtisadi təhlükəsizliyin qorunub saxlanılması və eləcə də dövlət büdcəsinə büdcə daxilolmalarının artırılması baxımından, adıçəkilən sahənin məhsullarının, o cümlədən kənd təsərrüfatı və qida məhsullarının xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi də mühüm əhəmiyyət kəsb edən məqamlardandır.

Qeyd etmək lazımdır ki, yuxarıda adıçəkilən problemlərin həlli, xüsusilə, qloballaşma şəraitində mühüm qlobal çağırışlar kimi səslənir. Odur ki, həmin qlobal çağırışların qarşılanması baxımından dövlətlər bu problemin həlli ilə bağlı müxtəlif proqramlar və Strateji Yol Xəritələri tərtib edirlər. Təsadüfi deyildir ki, ölkəmizdə də həmin qlobal çağırışların qarşılanması, əlverişli biznes mühitinin formalaşdırılması istiqamətində Azərbaycan Respublikasında qəbul edilmiş normativ-hüquqi sənədlərə əsasən çoxsaylı proqramlar və Strateji Yol Xəritələri qəbul edilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-ci il tarixli 1138 saylı fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə qeyd edilir ki, adıçəkilən prioritet çərçivəsində Azərbaycan dövləti biznes mühitinin institutsional əsaslarını gücləndirəcəkdir. Xüsusilə, azad rəqabət mexanizminin inkişaf etdirilməsi, dövlət-biznes münasibətlərində insan amilinin rolunun azaldılması ilə səmərəlilik, hesabatlılıq və şəffaflığın artırılması əsas istiqamət kimi götürüləcəkdir. Rəqabət mühitinin təkmilləşdirilməsi sağlam və tam təkmil rəqabət qanunvericiliyinin olmasını və bu qanunvericiliyin obyektiv və müstəqil fəaliyyət göstərən rəqabət qurumu tərəfindən tətbiqini və ümumilikdə rəqabət prinsiplərinə əməl edən, rəqabətin inkişafındakı əngəlləri aradan qaldıran və inhisarçılığa yol verməyən iqtisadi siyasətin gerçəkləşdirilməsini tələb edir. Əlverişli biznes mühitinin inkişafı üçün elektron hökumət xidmətlərində müasir texnologiyaların tətbiqi gücləndirilməklə və onlardan istifadə imkanları sadələşdirilməklə təkmilləşdirilməsi davam

etdiriləcəkdir[1].

Strateji Yol Xəritəsində qeyd edilən məqamlardan çıxarılan nəticə ondan ibarətdir ki, dövlət əmtəə istehsalçılarının prioritet əsaslarla iqtisadi resurslara çıxış imkanlarının yaxşılaşdırılmasını və bu baxımdan informasiya-kommunikasiya sistemlərinin tətbiqi imkanlarını nəzərə alan çevik mexanizm formalaşdırmaq niyyətindədir. Hesab edilir ki, bu amil ölkəmizdə əlverişli biznes mühitinin yaxşılaşdırılmasına geniş imkanlar açacaqdır.

Problemin həlli baxımından yanaşdıqda, bu həm daxili bazarın istehlakçıları üçün sərfəli xarakter daşıyır və həm də məhsulların qlobal bazarlara çıxarılmasında önəmli rola malikdir.

Bütün bunları nəzərə alaraq, hesab etmək olar ki, ixracın təşviqi ilə bağlı tədbirlərin genişləndirilməsi, həm də ənənəvi bazarlarla yanaşı, yeni bazarların əldə edilməsini nəzərdə tutur. Bu zaman rəqabət qabiliyyətinin yüksəldilməsinə xüsusi diqqət yetirilməlidir.

Qeyd edilən amilləri nəzərə alaraq, biznes mühitinin yaxşılaşdırılması, məhsulların ixracının təşviqi mexanizminin təkmilləşdirilməsi ilə bağlı zəruri tədbirlərin görülməsi bu sahədə mövcud olan problemlərin aradan qaldırılması fundamental tədqiqatların aparılmasını özündə əks etdirir. Məhz bütün bunlar dissertasiya işinin mövzusunun aktuallığını səciyyələndirir.

Dissertasiya işinin mövzusunun işlənmə dərəcəsi ilə bağlı qeyd etmək lazımdır ki, istər ölkəmizin, istərsə də xarici iqtisadçı alimlərin çoxsaylı əsərləri mövcuddur. Həmin əsərlər istər keçid dövründə, istərsə də bazar iqtisadiyyatı şəraitində öz aktuallığı ilə seçilir. Lakin onu da nəzərə almaq lazımdır ki, hər iki problemin bir-birilə qarşılıqlı konteksdə araşdırılması həyata keçirilməmişdir. Ölkəmizin iqtisadçı alimlərindən Z.Ə.Səmədzadə, E.A.Quliyev, B.X.Ataşov, E.R.İbrahinov, İ.H.İbrahimov, A.E.Quliyeva, M.C.Hüseynov, A.F.Abbasov, M.M.Hüseynov, F.V.Quliyev, E.Ə.İbrahimov, S.İ.Vəliyeva, A.Ə.Əzizov, E.B.Məmmədova, N.C.Qafarov və başqaları bu istiqamətdə elmi araşdırmalar aparmışlar. Xarici

[1] "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivləri üzrə Strateji Yol Xəritəsi" Azərbaycan Respublikası Prezidentinin 06 dekabr. 2016-cı il 1138 nömrəli fərmanı ilə təsdiq edilmişdir, Bakı, 106 səh, s. 91,92.

iqtisadçılardan L.L.Zobova, P.S.Zavyalov, A.K.Sen, M.P.Todaro və digərlərinin elmi əsərlərində bütövlükdə biznes mühitinin yaxşılaşdırılması və ixrac fəaliyyəti ilə bağlı tədqiqat işləri də aparılmışdır. Tədqiqat işlərində müəlliflər əmtəə istehsalçılarının daxili və xarici biznes mühitini tədqiq etmiş və adıçəkilən problemin nəzəri və metodoloji məsələlərini araşdırmışlar. Adı çəkilən ölkə iqtisadçılarının və eləcə də xarici iqtisadçıların əsərlərində irəli sürülən məqamları əsas götürürək hesab edirik ki, apardığımız tədqiqat, ilk növbədə biznes mühitinin yaxşılaşdırılmasına təsir göstərən amillərin müəyyənləşdirilməsi, eləcə də məhsulların ixrac potensialının artırılması, ixracın təşviqinin müxtəlif mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı elmi cəhətdən əsaslandırılmış və tətbiqi əhəmiyyətli təkliflərin həyata keçirilməsinə imkan verə bilər.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini milli iqtisadiyyatda fəaliyyət göstərən müəssisələr, eləcə də qeyri-neft sektorunda ixrac fəaliyyətini həyata keçirən təsərrüfat subyektləri təşkil edir. Tədqiqatın predmetini biznes mühiti və ixracın təşviqi ilə bağlı mövcud proseslərin öyrənilməsi, bu sahədə konkret dəyişikliklərin həyata keçirilməsi və istər biznes mühitinin və istərsə də ixracı təşviq mexanizminin təkmilləşdirilməsi istiqamətindəki meyillər, qanunauyğunluqlar, üsul və vasitələr təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi biznes mühitinin və ixracının təşviqi siyasətinin formalaşdırılmasının elmi-nəzəri məsələlərini tədqiq etməkdən, Azərbaycan Respublikasında biznes mühitinin və ixracın təşviqinin müasir vəziyyəti və inkişaf meyllərini təhlil etməkdən, biznes mühitinin yaxşılaşdırılmasının və ixracın təşviqinin prioritet istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir.

Tədqiqatın məqsədinə müvafiq olaraq aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və yerinə yetirilmişdir:

- qlobal biznes mühitinin mahiyyəti və səciyyəvi cəhətləri araşdırılmışdır;
- qloballaşma şəraitində biznes mühitinin funksiyaları və biznes mühitinə təsir edən amillər müəyyənləşdirilmişdir;
- ixracın təşviqinin stimullaşdırılmasının mahiyyəti, məqsədi, vəzifələri və spesifik xüsusiyyətləri öyrənilmişdir;

- iqtisadiyyatda biznes mühitinin mövcud vəziyyəti təhlil edilmişdir;
- əlverişli biznes mühitinin formalaşdırılmasının davamlı iqtisadi inkişafa və ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə təsiri araşdırılmışdır;
- ixrac fəaliyyətinin və ixracın təşviqinin müasir meyilləri təhlil edilmişdir;
- müasir şəraitdə biznes mühitinin yaxşılaşdırılmasının prioritet istiqamətləri müəyyənləşdirilmişdir;
- ixracın təşviqi mexanizminin təkmilləşdirilməsi istiqamətləri işlənib hazırlanmışdır;
- əlverişli biznes mühitinin formalaşdırılmasının ixracın təşviqinə təsiri əsaslandırılmışdır.

**Tədqiqatın metodları.** Tədqiqat işinin yerinə yetirilməsi zamanı elmi abstraksiya, ümumiləşdirmə, analiz və sintez, müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– iqtisadiyyatın sahə və ərazi kəsimlərində biznes mühitinin yaxşılaşdırılması və ixracın təşviqi mexanizminin təkmilləşdirilməsinin makroiqtisadi problem kimi araşdırılmasına ehtiyac vardır;

– qloballaşma şəraitində iqtisadiyyatın ayrı-ayrı sahələrində biznes mühitinin formalaşdırılmasının və inkişafının səciyyəvi cəhətləri müəyyənləşdirilməli, biznes mühitinin formalaşdırılmasında dəyişən reallıqların nəzərə alınmalıdır;

– biznes mühitinin inkişafının və ixracın təşviq edilməsinin müvəffəqiyyət göstəricisi kimi mülkiyyət mənsubiyyətindən asılı olmayaraq əmtəə istehsalçılarının maliyyə təsərrüfat fəaliyyəti və bütövlükdə sahənin rəqabət qabiliyyəti kimi anlayışlara xüsusi diqqət yetirilməlidir;

– biznes mühitinin yaxşılaşdırılmasına iqtisadiyyatın davamlı inkişafı baxımından yanaşılması zərurəti yaranmışdır və bu baxımdan dövlətin iqtisadi siyasətinin biznes mühitinin yaxşılaşdırılmasına təsirinin araşdırılmasına ehtiyac vardır;

– biznes mühitinin yaxşılaşdırılmasına və ixracın stimullaşdırılmasına nəinki yalnız iqtisadi, eyni zamanda sosial

aspektlərdən də yanaşılmalıdır. Buna görə də biznes mühitinin yaxşılaşdırılmasının əhalinin məşğulluğunun və əhalinin gəlirlərinin artırılmasına təsiri araşdırılmalıdır;

- qeyri-neft sektorunda, o cümlədən aqrar sahədə istehsal edilən məhsulların xarici bazara çıxış imkanlarının genişləndirilməsi prosesinə istehsal edilən məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsi, istehsalın modernləşdirilməsi və intensivləşdirilməsi baxımından yanaşılması mühüm əhəmiyyət kəsb edir;
- qloballaşma şəraitində qeyri-neft sektorunun mühüm tərkib hissəsi kimi kənd təsərrüfatı məhsullarının ixracının təşviqinin yeni formalarının müəyyənləşdirilməsi zəruridir.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

- müasir şəraitdə biznes mühitinə və ixracın təşviqi mexanizminin təkmilləşdirilməsinə qlobal rəqabət mühitinin mühüm tərkib hissəsi kimi yanaşılmışdır;
- biznes mühitinin sosial-iqtisadi səciyyəsi verilmiş, qloballaşma proseslərini nəzərə alınmaqla biznes mühitinə təsir edən amillər təsnifləşdirilmişdir;
- biznes mühitinin təşkilati amilləri çərçivəsində institutsional infrastruktur sistemlərinin rolu müəyyənləşdirilmişdir;
- biznes mühitinin yaxşılaşdırılmasında və ixracın təşviqində dövlətin iqtisadi tənzimləmə vasitələrinin rolu müəyyənləşdirilmişdir;
- büdcə subsidiyalarının güzəştli kreditləşdirmə sistemlərinin və təminatlı qiymətlərin aqrobiznes mühitinin yaxşılaşdırılmasında rolu əsaslandırılmışdır;
- mülkiyyət mənsubiyyətindən asılı olmayaraq kənd təsərrüfatı əmtəə istehsalçılarının iqtisadi resurslara çıxış imkanlarının yaxşılaşdırılması, aqrobiznes mühitinin yaxşılaşdırılmasının mühüm tərkib hissəsi kimi dəyərləndirilmişdir;
- qeyri-neft sektorunun inkişafı və dövlət büdcəsinə alternativ valyuta daxil olmalarının həcminin artırılması baxımından kənd təsərrüfatında əlverişli biznes mühitinin yaradılması ilə ixracın təşviqi siyasəti arasında sıx qarşılıqlı əlaqə müəyyənləşdirilmişdir;

- ixracının təşviqi mexanizminin təkmilləşdirilməsi istiqamətindəki tədbirlər dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissəsi kimi səciyyələndirilmişdir;
- ixrac infrastrukturlarının yaradılmasının qeyri-neft sektorunda ixracın təşviqinin təkmilləşdirilməsində mühüm rol oynadığı əsaslandırılmışdır;
- aqroholdinqlərin yaradılmasının kənd təsərrüfatı məhsullarının ixracının artırılmasında rolu müəyyənləşdirilmiş və onların fəaliyyətinin stimullaşdırılması məqsədilə ixracı təşviq mexanizmlərinin təkmilləşdirilməsinə dair təklif və tövsiyələr irəli sürülmüşdür.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin nəticələri Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin edilməsi, qeyri-neft məhsullarının ixracının stimullaşdırılması, biznes mühitinin yaxşılaşdırılması ilə bağlı dövlət proqramlarının həyata keçirilməsində, eləcə də azad iqtisadi zonaların yaradılması ilə bağlı proqramların işlənib hazırlanmasında istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas məzmunu iddiaçının Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda, beynəlxalq və respublika əhəmiyyətli elmi praktik konfransların materiallarında dərc edilmiş 10 məqalə (1-i xaricdə olmaqla), 4 tezisdə (1-i xaricdə olmaqla) öz əksini tapmışdır. Konfrans materialları sırasında "Государственная поддержка развития сельского хозяйства в Азербайджане" (Чебоксары, 2019) "Azərbaycanda biznes fəaliyyətinin infrastruktur təminatı və onun spesifik xüsusiyyətləri" (Gəncə, 2022), "Kənd təsərrüfatında biznes mühitinin inkişafına aqrar risklərin təsiri" (Bakı, 2023) tezisləri göstərmək olar.

Tədqiqat zamanı müəllifin həmçinin "Bazar konyukturunda baş verən tərəddüdlərin kənd təsərrüfatında biznes mühitinin inkişafına təsiri" (Bakı, 2021), "Aqrar sahədə sahibkarlıq və biznes fəaliyyətinin spesifik xüsusiyyətləri" (Bakı, 2022), "The role of improving the business environment in agriculture in ensuring the country's food security" (Hindistan, 2024), Qlobal dəyər zəncirində biznes mühitinin yaxşılaşdırılmasını şərtləndirən amillər (Gəncə, 2024) adlı məqalələri dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Dövlət Aqrar Universiteti.

**Dissertasiya işinin struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işinin strukturu Giriş, 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş (13406 işarə), I fəsil (103617 işarə), II fəsil (82778 işarə), III fəsil (82182 işarə), nəticə (4917 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısı (14837 işarə) üzrə ümumi həcmi 318748 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər və istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla 286900 işarədir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, onun nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, işin ümumi həcmi şərh olunmuşdur.

Dissertasiya işinin "**Biznes mühitinin və ixracının təşviqi siyasətinin formalaşdırılmasının elmi-nəzəri məsələləri**" adlanan I fəslində biznes münasibətlərinin mahiyyəti və səciyyəvi cəhətləri, biznes mühitinin mahiyyəti, spesifik xüsusiyyətləri və ona təsir edən amillər, ixracın təşviqi siyasətinin mahiyyəti, spesifik xüsusiyyətləri, ixracın stimullaşdırılmasında yeri və rolu tədqiq edilmişdir.

Müasir biznes fəaliyyəti yeni bazarlara çıxış imkanlarını genişləndirmək məqsədilə iqtisadiyyatın şaxələndirilməsini nəzərdə tutur. Bu isə yeni məhsulların istehsalına buraxılan məhsul çeşidinin genişləndirilməsini, məhsulun keyfiyyətinin yüksəldilməsini və məhz bütün bunların tətbiqi hesabına ixracın şaxələndirilməsini nəzərdə tutur. Beləliklə, milli iqtisadiyyat çərçivəsində əlverişli biznes mühiti bütün mövcud imkanlardan səmərəli istifadə hesabına iqtisadi artımın təmin edilməsi məqsədi ilə iqtisadiyyatın formalaşdırılmasına xidmət edir.

Mikroiqtisadiyyat çərçivəsində əlverişli biznes mühitinin formalaşdırılması sahibkarlıq və biznes subyektlərinin təşəbbüskarlıq

qabiliyyətinin reallaşdırılmasına da yeni imkanlar açır. Makroiqtisadi baxımdan əlverişli biznes mühitinin yaradılmasına və dəstəklənməsinə istiqamətlənmiş tənzimlənmə siyasəti daha çox stimullaşdırıcı xarakter daşıyır. Bütün sferalarda əlverişli biznes mühitinin formalaşdırılması biznes və sahibkarlıq fəaliyyətinin hərəkətverici amili kimi çıxış etməklə, ictimai və fərdi baxımdan iqtisadi inkişafın sürətləndirilməsinə əlverişli şərait yaradır. Əlverişli biznes mühitinin formalaşdırılması resurslardan səmərəli istifadə edilməsinin məhsul istehsalı və xidmətlər göstərilməsi ilə bağlı xərclərin azaldılmasını nəzərdə tutur.

İqtisadiyyatda biznes münasibətlərinin inkişafına, biznes fəallığına siyasi proseslər, epidemiyalar və s. əhəmiyyətli şəkildə mənfi təsir göstərir. 2019-cu ildən etibarən dünyada yayılan COVİD-19 pandemiyası iqtisadi potensialın bütün elementlərinin sərbəst hərəkətini məhdudlaşdırmışdır ki, bu da dünyanın bütün ölkələrində iqtisadi fəallığın aşağı düşməsinə gətirib çıxarmışdır. COVİD-19 pandemiyasının doğurduğu ən mühüm təzahür ondan ibarətdir ki, xüsusilə ölkələr arasında iqtisadi əlaqələrin kəsilməsi eyni zamanda “Evdə qal” kampaniyası çərçivəsində fərdlər, regional və ölkələr ilk növbədə ərzaq təhlükəsizliyini - ərzaq məhsullarına olan tələbatının daxili mənbələr hesabına ödənilməsi, əczaçılıq məhsullarına olan tələbatın ödənilməsini təmin etməlidir. Qlobal iqtisadi böhran əhalinin gəlirlərinin səviyyəsinin aşağı düşməsinə gətirib çıxarmışdır. Koronavirus pandemiyası dünya ölkələrində maliyyə-bank sektorunun da çökməsinə səbəb olmuş və qlobal miqyasda gəlirlərin səviyyəsinin azalmasını şərtləndirmişdir.

Biznes mühitinin ən bəsit xarakteristikası ondan ibarətdir ki, məhsulların satışının təşkilinə əlverişli şərait yaradır, eyni zamanda iqtisadi sərbəstliyi özündə ehtiva edən mexanizmlər fəallaşır. Qloballaşma prosesinin dərinləşdiyi müasir şəraitdə biznes mühiti öz klassik sərhədlərinin aşmış, azad bazar iqtisadiyyatı, biznes mühitinin təsiri geniş təkrar istehsalın bütün sahələrində fəallaşmasına gətirib çıxarmışdır. Biznes mühiti biznes fəaliyyətinə təsir edən lakin, konkret olaraq sahənin və təsərrüfat subyektinin müdaxilə edə bilmədiyi siyasi, iqtisadi, sosial və texnoloji təzahürlərin məcmusudur. Adı çəkilən təzahürlər konkret olaraq milli iqtisadiyyat, sahə və təsərrüfat

subyekti miqyasında biznes fəaliyyətinə əlverişli və ya zərərli təsir göstərə bilər. Biznes mühiti iqtisadi fəallığa, o cümlədən sahibkarlıq fəallığına da əhəmiyyətli dərəcədə təsir göstərir. Bu baxımdan biznes mühitinin aşağıdakı növ müxtəlifliklərini fərqləndirmək mümkündür:

- klassik biznes mühiti;
- adaptiv biznes mühiti;
- missiyalı biznes mühiti;
- tənzimlənən biznes mühiti.

Milli iqtisadiyyatda biznes mühitinin əlverişli olması firma və şirkətlərin resurslara əlçatanlığından, azad rəqabət mühitinin inkişafından, inhisarçılığın qarşısının alınmasından bilavasitə asılı olur. İstər nəzəriyyədə və istərsə də təcrübədə bu qəbildən olan biznes mühitini klassik biznes mühiti adlandırırlar. Şirkətin klassik biznes mühiti biznes mühitinin elə bir arzu olunan vəziyyətidir ki, şirkətin azad rəqabət mühitində necə fəaliyyət göstərə biləcəyi təxmin edilə bilir, lakin təsərrüfat subyekti mühitin özünü dəyişdirə bilmir.

Adaptiv biznes mühiti postsənaye cəmiyyətinin formalaşdığı hazırkı qloballaşma şəraitində özünü daha çox təzahür etdirir. Adaptiv biznes mühiti informasiya-kommunikasiya texnologiyalarının tətbiq edildiyi sənaye sahələrində daha çox təzahür etməkdədir. Sənayenin ETT-nin ən yeni nailiyyətlərinin təsiri altında innovasiyalaşması milli iqtisadiyyatda özünəməxsus biznes mühiti doğurur ki, bu da biznes mühitinin daim dəyişdiyi bir vəziyyətdir. Adaptiv biznes mühitinin xüsusiyyətlərindən biri yüksək iqtisadi artım tempi və istehlakçıların zövqlərinin davamlı olaraq dəyişməsidir. Adaptiv biznes mühiti daim inkişaf edən, dəyişən və təkmilləşən mütərəqqi texnologiyalar bazarları üçün xarakterikdir.[2]

Missiyalı biznes mühiti. Missiyalı biznes mühiti biznes mühitinin arzuolunan vəziyyətini özündə əks etdirməklə potensial imkanlardan səmərəli istifadə edilməsini nəzərdə tutur. Missiyalı biznes mühiti yeni ideyanın, bazarda yeni trendlərin, yeni texnologiyanın, bazarın konyunkturunu dəyişdirə biləcək yeni məhsul və xidmətlərin yaranması üçün zəruri olan sosial-iqtisadi

---

[2] https://dzen.ru/a/Yt3Hwv0m-mI60xHl

mühitin məcmusunu nəzərdə tutur. Missiyalı biznes mühiti firma və şirkətlərin təsərrüfat fəaliyyətini yeni innovativ ideyalar əsasında dəyişdirə biləcək mühit yaradır. Yeni məhsul və xidmət növlərinin yaranması üçün obyektiv şəraitin olması və ya zərurətin mövcudluğu da vacib şərtlərdəndir.

Tənzimlənən biznes mühiti biznes mühitinin yuxarıda adları çəkilən növ müxtəlifliklərinin stimullaşdıra bilmədiyi fəaliyyət sahələrinin inkişafına xidmət göstərməklə özünəməxsus ayrıcalıqlara malikdir. Klassik biznes mühiti ənənəvi səciyyə daşımaqla daha çox azad bazar iqtisadiyyatının stimullaşdırdığı sahələr üçün xarakterikdir. Adaptiv və missiyalı biznes mühiti isə innovasiyalı, yaradıcı ideyalara istiqamətlənən sahələrin inkişafını stimullaşdırır. Lakin iqtisadiyyatın elə sahələri mövcuddur ki, bu sahələr azad bazar iqtisadiyyatının klassik xarakter daşıyan qanunauyğunluqları əsasında inkişaf etmək iqtidarında deyil. Odur ki, bu sahələrin inkişafı üçün özünəməxsus spesifik xüsusiyyətləri özündə ehtiva edən tənzimlənən biznes mühitinin formalaşdırılması mühüm strateji əhəmiyyət kəsb edir.

1-ci şəkildən göründüyü kimi, biznes mühiti kifayət qədər geniş və çoxşaxəli funksiyalar yerinə yetirir. Biznes mühitinin funksiyaları həm də ölkənin regionlarında da iqtisadi fəallığın yüklənməsinə istiqamətlənir.

Biznes mühitinə müasir şəraitdə çox saylı amillər təsir göstərir. Bu amillərin zərərli təmayüllərinin qarşılanmadığı təqdirdə onlar yüksək risklərə, təhdidlərə və ən nəhayət ölkənin iqtisadi təhlükəsizliyinə mənfi təsirlərə çevrilmək iqtidarında olur. Biznes mühitinə təsir göstərən amilləri özünəməxsus əlamətlər üzrə təsnifləşdirmək mümkündür ki, bu təsnifləşdirmə 2-ci şəkildə verilmişdir.




**Şəkil 1. Biznes mühitinin funksiyaları**

*Şəkil müəllif tərəfindən tərtib edilmişdir.*




**Şəkil 2. Biznes mühitinə təsir göstərən amillərin təsnifləşdirilməsi.**
*Şəkil müəllif tərəfindən tərtib edilmişdir.*

Biznes mühitinə təsir göstərən xarici amillərinin təsnifatı 3-cü şəkildə göstərilmişdir.

İxracın təşviqi siyasəti iqtisadiyyatın sahə strukturundan və ixracın strukturunda bu və ya digər sahənin hakim mövqe tutmasından asılı olaraq həyata keçirilir. İxracın təşviqi həm də ölkələrin ixtisaslaşma səviyyəsindən, hər bir ölkənin beynəlxalq əmək bölgüsündəki yerindən və rolundan asılı olur. İxracın strukturunda bu və ya digər məhsullar dominant mövqe tutursa, həmin məhsulun ixracında daha çox pul gəliri əldə edilirsə həmin məhsul üçün ixracın təşviqi siyasəti həyata keçirməyə gərək qalmır. İxracın təşviqi siyasəti adətən iqtisadiyyatın potensial imkanlara malik olan, lakin dünya bazarında konkret brend kimi tanınmayan məhsullar üçün həyata keçirilir. İxracın təşviqinə yönəldilən siyasət daha çox bu və ya digər məhsulların bazarda tanıdılmasına, eyni zamanda ənənəvi məhsullarla yanaşı, alternativ məhsulların xarici bazarlarda reallaşdırılmasından gəlirlər əldə edilməsinə xidmət edir.




**Şəkil 3. Biznes mühitinə təsir göstərən xarici amillərin təsnifatı**

*Şəkil müəllif tərəfindən tərtib edilmişdir.*

Məlum olduğu kimi, xarici ticarət siyasətində, xüsusilə ixracın tənzimlənməsində stimullaşdırıcı və məhdudlaşdırıcı vasitələrdən istifadə edilir. İxracın stimullaşdırılmasına yönəldilmiş tədbirlər sistemində ixracın təşviqi prioritet istiqamətlərdən biri sayılır.

Kənd təsərrüfatında ixracın təşviqi proseslərinə qlobal amillər daha çox təsir göstərir. Doğrudur qloballaşma prosesləri əmtəələrin,

kapitalın, işçi qüvvəsinin, texnologiyaların sərbəst və maneəsiz hərəkətini, başqa sözlə azad rəqabət mühitinin dəstəklənməsini özündə ehtiva etsə də, bu prosesin mühüm tərkib hissəsini təşkil edən qlobal rəqabət mühitinin inhisarlaşmanı da bərabərində gətirir. Bundan əlavə sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə keçiddə qlobal bazarlarda fərqli mənzərə yaradır.

**Dissertasiyanın II fəsli "Azərbaycan Respublikasında biznes mühitinin və ixracın təşviqinin müasir vəziyyəti və inkişaf meylləri"** adlanır. Bu fəsildə biznes mühitinin mövcud vəziyyəti, əlverişli biznes mühitinin formalaşdırılmasının iqtisadi inkişafın təmin edilməsinə təsiri, ixrac fəaliyyətinin və ixracin təşviqinin müasir meyilləri təhlil edilir.

Dünya bankı hər il dünyanın müxtəlif ölkələrində öz biznesini qurmaq və idarəetmənin çətinliyini əks etdirən Doing Business reitinqini dərc edir. Bu reytinq dünyanın ayrı-ayrı ölkələrindəki biznes mühitinin səviyyəsini qiymətləndirməyə imkan verir. Yekun reytinqdən bütün ölkələrin əlverişli biznes şəraitinin səviyyəsinə görə 1-dən 189-a qədər sıralama aparılır və 1-ci yer ən yüksək yer kimi səciyyələnir. Ölkənin yüksək mövqeyi bu ölkədə biznesin açılmasının və aparılmasının sürətli, sadə və təhlükəsiz olması deməkdir. 2020-ci ildə adı çəkilən reytinq sıralamasında 1-ci Yeni Zelandiya, 2-ci Siniqapur, 3-cü yeri Hongkong, 4-cü Yeri Danimarka, 5-ci yeri Cənubi Koreya, 6-cı yeri isə ABŞ tutur.

2024-cü ildən etibarən Business Ready (B-READY) adlı yeni layihə reallaşdırılmaqdadır. Bu layihə şərti olaraq üç nominasiya üzrə gerçəkləşdirilir. Birinci nominasiya normativ hüquqi bazanı, ikinci nominasiya dövlət xidmətlərini, üçüncü nominasiya isə fəaliyyətin səmərəliliyini əhatə edir. 2024-cü ildə Business Ready (B-READY) adlı yeni layihənin birinci nominasiyasında Macarıstan (78,2), Portuqaliya (78,1) və Gürcüstan (77,7) əmsalla ilk üçlüyə daxil olmuş, 50 ölkənin iqtisadiyyatını əhatə edən sıralamada İrak (49,4), İordan çayının Qərb sahili-Qəzza (47,5) və Timor-Leşti (46,2)son üçlüyü qapamışdır. Dövlət xidmətləri nominasiyasında ilk üçlüyü Estoniya (73,3), Sinqapur (70,4) və Xorvatiya (70,2), son üçlüyü isə İrak (21,4), Qambiya (20,1) və Mərkəzi Afrika Respublikası (18,3) qapatmışdır. Fəaliyyətin səmərililiyi nominasiyasında isə nominasiyasında ilk

üçlüyü Sinqapur (87,3), Gürcüstan (84,7) və Ruanda (81,3), son üçlüyü isə Timor-Leşti (44,8), Vanuatu (43,9) və Mərkəzi Afrika Respublikası (40,4) qapatmışdır.[3]

Dissertasiya işinin əvvəlki fəslində də qeyd etdiyimiz kimi, əlverişli biznes mühitinin formalaşdırılması bir sıra hallarda dövlətin iqtisadi siyasətindən də bilavasitə asılı olur. Dövlətin iqtisadi siyasət tədbirləri çərçivəsində ölkəyə gətirilən elit toxum sortlarına, cins mal qaraya görə ƏDV-dən azad olunmalar da önəmli rol oynayır. 2019-2022-ci illərdə ölkəyə gətirilən kənd təsərrüfatı təyinatlı və gələcəkdə sahənin inkişafında strateji rol oynayan məhsul və avadanlıqların ƏDV-dən azad edilmiş gömrük dəyərinin həcmi 1-ci cədvəldə öz əksini tapmışdır.

**Cədvəl 1.**

**2019-2024-cü ildə ölkəyə idxal edilən strateji təyinatlı kənd təsərrüfatı təyinatlı məhsulların ƏDV-dən azad edilmiş gömrük dəyərinin dinamikası (min manatla)**

| № | Məhsulun adı | 2020 | 2021 | 2023 | 2024 |
|---|---|---|---|---|---|
| 1 | Diri iribuynuzlu mal-qara | 46970,6 | 36480,5 | 76534 | 56402,5 |
| 2 | Diri qoyunlar və keçilər | 15193,5 | 11076,7 | 25138,8 | 18086,9 |
| 3 | Soya paxlaları | 8200 | 7900 | 8353,2 | 8600 |
| 4 | Şəkər çuğunduru | 1200 | 1300 | 1380,1 | 1400 |
| 5 | Torpaq işləmə texnikası | 12000 | 13000 | 14062,6 | 15000 |
| 6 | Yığım texnikası | 35000 | 37000 | 40143 | 42000 |
| 7 | K/t avadanlıqları | 11000 | 12000 | 13964,2 | 14500 |
| 8 | Taxıl emalı avadanlıqları | 2000 | 2300 | 2757,9 | 3000 |
| 9 | Traktorlar | 120000 | 135000 | 151481,3 | 160000 |

*Mənbə: https://customs.gov.az*

Cədvəl 1-dən göründüyü kimi, gömrük vergisindən azad edilmiş kənd təyinatlı məhsullar elit toxum sortları, cins mal-qara, bitki mühafizə vasitələri, kənd təsərrüfatında istifadə olunan əsas istehsal

[3] Business Ready 2024, 64c, c14,15

vasitələri (traktor kombayn və s.), mineral gübrələr və s. şamil edilir.

Əlverişli biznes mühitinin formalaşdırılmasının ən mühüm tərkib element-lərindən biri də əmtəə istehsalçılarının kapital resursları bazarına çıxış imkanlarının təmin edilməsidir. Kənd təsərrüfatı əmtəə istehsalçılarının kapital resurslarına çıxış imkanlarının təmin edilməsində Sahibkarlığın İnkişafı Fondu önəmli rol oynayır. Adı çəkilən fond qeyri-neft sektorunun inkişafında mühüm maliyyələşdirmə və investisiyalaşdırma mənbəyi olmaqla müasir şəraitdə innovativ texnologiyaların cəlb edilməsinə daha çox xidmət edir. Fond kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə bağlı müxtəlif layihələri maliyyələşdirməklə ixrac yönümlü məhsul istehsalının həcminin artırılmasında mühüm əhəmiyyət kəsb edir (cədvəl 2).

**Cədvəl 2.**

**Sahibkarlığın İnkişafı Fondu vasitəsilə kreditləşdirilən lahiyələr**

| **Dinamika və təhlil** | **2020** | **2022** | **2023** | **2024** | **2020-ci illə müqayisədə 2024-cü ildə, %** |
|---|---|---|---|---|---|
| Maliyyələşdirilmiş layihələr | | | | | |
| Layihələrin sayı | 908 | 2 726 | 3 276 | 5722 | 6.3 dəfə |
| Ümumi dəyəri (mln. manatla) | 245,4 | 399,4 | 459,9 | 481,6 | 196 |
| Kredit məbləği (mln. manatla) | 126,9 | 145,9 | 193,8 | 248,1 | 195 |
| o cümlədən mikro, kiçik və orta sahibkarlara (mln. manat / xüsusi çəki) | 108,8 (85,7%) | 143,4 (98,3%) | 176,6 (91,1%) | 231,8 (93,4%) | 2.1 dəfə |
| Kreditlərin layihələrin ümumi dəyərinə nisbəti (%) | 51,7 | 36,5 | 42,1 | 51,5 | |
| Orta kredit məbləği (mln. manatla) | 0,140 | 0,054 | 0,059 | 0,043 | 30 |
| Orta kredit müddəti (il) | 6,5 | 4,2 | 3,8 | 3,3 | 50.1 |

*Mənbə: Sahibkarlığın İnkişaf Fondunun 2024-cü il üzrə hesabatı*

Cədvəl 2-dən göründüyü kimi, 2020-ci illə müqayisədə 2024-cü ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən maliyyələşdirilmiş layihələrin sayı 6,3 dəfə artaraq 5722 ədəd təşkil etmişdir. Əgər 2020-ci ildə

maliyyələşdirilmiş layihələrin dəyəri 245,4 mln manat təşkil etmişdirsə 2024-cü ildə bu göstərici 96% artaraq 481,6 mln manata catmışdır. Sahibkarlığın İnkişaf Fondu tərəfindən maliyyələşdirilmiş layihələrə verilən kreditlərin məbləği 95% artaraq 248,1 mln manat təşkil etmişdir. Sahibkarlığın İnkişaf Fondu tərəfindən maliyyələşdirilmiş layihələrin dəyərində mikro, kiçik və orta sahibkarlara verilən kreditlərin xüsusi çəkisi 93.4% təşkil etmişdir. 2024-cü ildə Sahibkarlığın İnkişaf Fondu tərəfindən verilmiş kreditlərin iqtisadiyyatın sahələri üzrə bölgüsü 4-cü şəkildə göstərilmişdir.




**Şəkil 4. Sahibkarlığın İnkişaf Fondu tərəfindən verilmiş kreditlərin iqtisadiyyatın sahələri üzrə bölgüsü (mln. manat)**

*Mənbə: Norwegian Ministry of Trade, Industry and Fisheries, "Strategy for Export and Internationalisation" 2017, page 22*

Şəkil 4-dən göründüyü kimi, 2024-cü ildə Sahibkarlığın İnkişaf Fondu tərəfindən verilmiş kreditlərin 132,2 mln manatını kənd təsərrüfatı məhsullarının istehsalına, 79,3 mln manatı sənaye məhsullarının istehsalı və emalına, 15,2 mln manatı kənd təsərrüfatı məhsullarının emalına, 5,1 mln manatı turizmin inkişafına, 1mln manatı balıqçılıq və akvakultura sahəsinin inkişafına, 15,2 mln manatı isə xidmət sahələrinin inkişafına yönəldilmişdir. Bu isə onu göstərir

ki, Sahibkarlığın İnkişaf Fondu tərəfindən verilmiş güzəştli kreditlər vasitəsilə kənd təsərrüfatı məhsullarının istehsalı, sənaye məhsullarının istehsalı və emalı daha çox dəstəklənir. Sahibkarlığın İnkişaf Fondu tərəfindən verilmiş güzəştli kreditlərin növlər üzrə bölgüsü 5-ci şəkildə göstərilmişdir.




**Şəkil 5. Verilmiş güzəştli kreditlərin növlər üzrə bölgüsü (pay, %)**

*Mənbə: Norwegian Ministry of Trade, Industry and Fisheries, "Strategy for Export and Internationalisation" 2017, page 22*

Şəkil 5-dən göründüyü kimi, əgər 2019-cu ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilmiş güzəştli kreditlərin 10,2%-i kiçik həcmli,12,8%-i orta həcmli, 77%-i orta həcmli kreditlərin payına düşürdüsə, 2024-cü ildə bu göstərici müvafiq olaraq 40,8; 43,8; 15,5% təşkil etmişdir. Başqa sözlə desək, 2024-cü ildə kiçik, orta və böyük həcmli kreditlərin faiz nisbəti arasında nisbətən proporsionallıq yaranmağa başlamışdır. 2021-2024-cü ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilmiş güzəştli kreditlərin strukturunda kiçik və orta həcmli kreditlərin xüsusi çəkisi artmağa meyilli olmuşdur. 2019-cu ildən etibarən isə Sahibkarlığın İnkişaf Fondu tərəfindən verilmiş güzəştli kreditlərin strukturunda iri həcmli kreditlərin xüsusi çəkisi azalmağa başlamışdır. Bu isə ona göstərir ki, dövlətin iqtisadi siyasətində kiçik və orta sahibkarlığın inkişafına dəstək meyilləri daha yüksək olmuşdur.

Kreditlərin alınması indiqatoru üzrə Azərbaycanın mövqeyi Doing-Business hesabatında ölkələr üzrə qiymətləndirilməsi 3-cü cədvəldə göstərilmişdir.

**Cədvəl 3.**

**Ölkələr üzrə kreditlərin alınması reytinqi**

| Ölkə | Kreditlərin alınmaslı reytinqi | Kredit əməliyyatlarının qorunma səviyyəsi | Kredit məlumat indeksi |
|---|---|---|---|
| Azərbaycan | 1 | 12 | 8 |
| Yeni Zellandiya | 1 | 12 | 8 |
| Avstraliya | 4 | 11 | 8 |
| İordaniya | 4 | 11 | 8 |
| Gürcüstan | 15 | 9 | 8 |
| Kanada | 15 | 9 | 8 |
| Qırğızıstan | 15 | 9 | 8 |
| Latviya | 15 | 9 | 8 |
| Qazaxıstan | 25 | 8 | 8 |
| Rusiya | 25 | 9 | 7 |

*Mənbə: Doing Business-2020 World Bank Group: https//www.worldbank.org*

Kredit əməliyyatlarının qorunması indeksi 0-12 arası dəyişir. İndeksin yüksək olması bu sahədə islahatların davamlı aparılmasını göstərir.

Biznes mühitinin yaxşılaşdırılması mürəkkəb bir prosesi özündə əks etdirdiyindən bu prosesə sistemli yanaşma daha doğru olardı. Belə ki, biznes mühiti investisiya mühitinin yaxşılaşdırılması ilə də bilavasitə bağlıdır. Bunun üçün isə investitsiya fəallığının artırılması vacibdir. Doğudur, bu prosesin özü də mürəkkəb və çoxşaxəli prosesi özündə əks etdirir. Belə ki, iqtisadiyyatın sahələrinin özünəməxsus spesifik xüsusiyyətlərə malik olması və sahənin risklərə effektiv və davamlı reaksiya göstərmək iqtidarında olmaması fərqli sahə və ərazi kəsimlərinin investisiya fəallığının zəifləməsinə gətirib çıxarır. Azərbaycan Respublikasında iqtisadiyyatın sahələrinə yatılan investitsiya qoyuluşunun dinamikası 6-cı şəkildə göstərilmişdir.




**Şəkil 6. Azərbaycan Respublikasında iqtisadiyyatın sahələrinə yatırılan investitsiyalarının dinamikası, milyon manatla**

*Mənbə: Azərbaycanın kənd təsərrüfatı, statistik məcmuə. Bakı, 2023, 709 s., 57 s.*

Şəkil 6-dan göründüyü kimi, 2024-cü ildə ölkə iqtisadiyyatına 21435,1 milyon manat investitsiya yatırılmışdır ki, bu da 2015-ci illə müqayisədə 34,3% çoxdur. Hesabat ilində kənd təsərrüfatına 283.1 milyon manat, sənayeyə 7577,3 milyon manat, tikintiyə 5353,6 milyon manat, nəqliyyat və anbar təsərrüfatına 5780,4 milyon manat,

informasiya və rabitə sektoruna 630.4 milyon manat, digər sahələrə isə 1810,3 milyon manat investisiya yatırılmışdır. Müqayisə olunan dövrdə investisiya artımı kənd təsərrüfatında 16.3,8%, tikintidə 2,5 dəfə, nəqliyyat və anbar təsərrüfatında 2,6 dəfə, informasiya və rabitə sektorunda 88% olmuşdur. Müqayisə olunan dövrdə kənd təsərrüfatına yatırılan investisiyaların həcmi 20,4%, sənayeyə yatırılan investisiyaların həcmi isə 10,9% azalmışdır. Adı çəkilən azalmanın ən başlıca səbəblərindən biri də Qarabağda tikinti işlərinə daha çox investisiyaların yatırılmasıdır.

Dissertasiya işinin III fəsli **"Biznes mühitinin yaxşılaşdırılmasının və ixracın təşviqinin prioritet istiqamətləri**" adlanır. Bu fəsildə müasir şəraitdə biznes mühitinin yaxşılaşdırılmasının, kənd təsərrüfatı məhsullarının ixracının təşviqi mexanizminin təkmilləşdirilməsi istiqamətləri, əlverişli biznes mühitinin formalaşdırılmasının ixracın təşviqinə təsiri müəyyənləşdirilir. Bu fəsildə qeyd edilir ki, biznes mühitinin yaxşılaşdırılmasına istiqamətlənmiş tədbirlər müasir şəraitdə dövlətin iqtisadi siyasətinin ən mühüm hədəflərindən biri olmalıdır. Bu hədəflər doğrultusunda əmtəə istehsalçılarının zərərlərinin kompensasiya edilməsi onların gəlirlə işləməsi üçün fundamental xarakter daşıyan baza şərtləri yaradılmalıdır. Nəzərə alınmalıdır ki, xüsusilə kiçik və orta əmtəə istehsalçıları bir sıra hallarda:

- natural ailə ehtiyaclarını qarşılayır;
- təsərrüfat nailiyyətlərinin zərərlə başa vurur;
- təsərrüfat fəaliyyətini 20-30% rentabillik səviyyəsi ilə yekunlaşdırır.

Xüsusilə qlobal rəqabət mühitində 20-30%-lik rentabellik göstəricisi səmərəli geniş təkrar istehsal prosesini gerçəkləşdirməyə imkan vermir. Emal sənayesi müəssisələri və xidmət təşkilatları, vasitəçi qurumlar rentabellik səviyyəsini 150-200% hədlərinə çıxarmaq iqtidarındadır. Bu hal əksər hallarda əmtəə istehsalçılarının optimal istehsal miqyasına malik olmaması ilə izah edilə bilər. Odur ki, müasir şəraitdə biznes mühitinin yaxşılaşdırılmasının prioritet istiqamətlərindən biri kimi kooperasiyası münasibətlərinin inkişafının stimullaşdırılmasıdır. Biznes mühitinin yaxşılaşdırılmasına yönəldilmiş prioritet istiqamətlər kooperativlərin

iqtisadi vasitələrlə (diferensial xarakter daşıyan subsidiyalar, güzəştli kreditləşmə məqsədli investisiya qoyuluşları) dəstəklənməlidir.

Biznes mühitinin yaxşılaşdırılmasının prioritet istiqamətlərindən biri kimi regionların ixtisaslaşma istiqamətlərinə uyğun əmtəə istehsalçılarına yaxın məsafədə yerləşən çox saylı iri və orta ölçülü emal müəssisələrinin yaradılması olardı. Bu məsələlərinin həlli emal müəssisələrinin inhisarçılığın qarşısının alınmasında əlverişli şərait yaradardı.

Əlverişli biznes mühitinin yaxşılaşdırılmasının prioritetlərindən biri də əmtəə istehsalçılarının və emal sənayesi müəssisələrinin istehsal etdiyi məhsulların daxili və xarici bazarlarda rəqabətə davamlığının artırılması olardı. Xüsusilə qlobal rəqabət mühitində adıçəkilən məsələ daha çox aktuallıq kəsb edir. Qlobal rəqabət mühitində rəqabətqabiliyyətli qiymət və qeyri-qiymət rəqabətə davamlılığı ilə şərtlənir. Qiymət baxımından rəqabət qabiliyyəti məhsulun istehsalçı üçün əlverişli olmasından irəli gəlir. Alıcılıq qabiliyyətinin aşağı olduğu əhalinin yaşadığı inkişaf etməkdə olan ölkələrdə məhsul və xidmətlərin qiymət baxımından rəqabətqabiliyyətli olması daha çox geniş yayılmışdır. Bu anlayış əhalinin alıcılıq qabiliyyətinin yüksək olduğu inkişaf etmiş ölkələr üçün o qədər də keçərli deyildir. Xarici ticarət fəaliyyətinin strukturunda kənd təsərrüfatı və ərzaq məhsullarının xarici bazarlara çıxarılması, eləcə də ölkə əhalisinin ehtiyaclarının ödənilməsi üçün bu və ya digər ölkələrdən məhsulların idxal edilməsi önəmli rol oynayır. Kənd təsərrüfatı məhdullarının xarici bazarlara çıxarılması prosesi ixracın mühüm tərkib hissəsini təşkil etməklə, eyni zamanda ölkələrin dövlət büdcəsinə vəsait daxil olmasını da şərtləndirir. Bu və ya digər ölkələr, xüsusilə, kənd təsərrüfatı məhsullarının ixracı sahəsində prioritet rol oynamaqla həmin məhsulların müqayisəli üstünlüklərinə əsasən öz fəaliyyətini gerçəkləşdirirlər. Belə ki istehsal edilən kənd təsərrüfatı məhsullarının yüksək məhsuldarlığa malik olması, eləcə də modern aqrar istehsalatın qurulması ixracın səviyyəsinin artmasında önəmli amillərdən biri sayılır. Səmərəli ixrac fəaliyyəti həyata keçirən ölkələr bir qayda olaraq rəqabətqabiliyyətli kənd təsərrüfatı və ərzaq məhsulları istehsal edirlər ki, bu da həmin məhsulların dünya bazarında daha çevik

şəkildə reallaşdırılmasına əlverişli şərait yaradır. Ticarət və biznes fəaliyyəti bir qayda olaraq daxili və xarici ticarət əlaqələrindən formalaşır. Daxili ticarət fəaliyyəti hər bir ölkənin milli ticarət qanunvericiliyi, milli iqtisadi qanunvericiliyi vasitəsi ilə tənzimlənir. Beynəlxalq ticarət prosesində isə artıq bu proseslər hər hansı bir ölkənin daxili qanunvericilik aktları vasitəsilə deyil, eyni zamanda beynəlxalq ticarət münasibətlərini tənzimləyən hüquqi normativ aktlarla limitləşdirilir. Lakin bununla belə, xüsusilə, kənd təsərrüfatı məhsullarının ixracının genişləndirilməsi ilə bağlı geniş təcrübəyə malik olan ölkələr ticarət əməliyyatının həyata keçirilməsində yüksək peşəkarlığa və beynəlxalq biznes etikasına da malik olurlar ki, bu da tədarükçülər və müştərilər arasında birbaşa əlaqələrin gerçəkləşdirilməsində önəmli rol oynayır. Beynəlxalq ticarət əlaqələrinin səmərəliliyinin yüksəldilməsi o halda mümkün olur ki, bu zaman ayrı-ayrı vasitəçilərin sayı azaldılır, yəni ölkələr bir-birilə birbaşa ticarət əlaqələri gerçəkləşdirirlər.

Müasir şəraitdə beynəlxalq ticarət əlaqələrinin gerçəkləşdirilməsi, ixracın həcminin artırılması həm vasitəçilərin sayının azaldılmasından və həm də ölkələrin beynəlxalq bazar payının genişləndirilməsinə istiqamətlənmiş tədbirlər həyata keçirilməsindən də bilavasitə asılı olur. Müasir şəraitdə kənd təsərrüfatı məhsullarının ixrac həcminin artırılmasını şərtləndirən yeni amillər meydana çıxır. Bu amillər ilk növbədə dünya iqtisadiyyatının qloballaşması ilə sıx bağlıdır. Problemə bu aspektdən yanaşdıqda kənd təsərrüfatı məhsullarının ixrac həcminin artırılmasını şərtləndirən amilləri daxili və xarici mühit amilləri kimi də dəyərləndirmək mümkündür. Kənd təsərrüfatı məhsullarının ixracının artırılmasını şərtləndirən daxili mühit amilləri, ilk növbədə kənd təsərrüfatı və emal sənayesinin modernləşdirilməsi, onların rəqabət qabiliyyətinin yüksəldilməsi, məhsulun keyfiyyətinin artırılması ilə sıx bağlı olub, məhsulun ucuz başa gəlməsi, aşağı maya dəyərə malik olması ilə sıx əlaqədardır. Bundan əlavə müasir şəraitdə kənd təsərrüfatı məhsullarının ixrac həcminin artırılmasını şərtləndirən qlobal mühit amilləri də mövcuddur ki, bu da istehsalçıların qlobal Qeyd etmək lazımdır ki, ixracın təşviqi mexanizminin təkmilləşdirilməsinə istiqamətlənmiş tədbirlər həm də dünya ərzaq bazarında beynəlxalq

əmək bölgüsünü və eləcə də ixtisaslaşmanın mövcud şərtlərini nəzərə almalıdır. Məhz bütün bunları nəzərə alaraq, ixracın təşviqi mexanizminin təkmilləşdirilməsinə istiqamətlənmiş tədbirlər çərçivəsində aşağıdakı xarici mühit amillərinin nəzərə alınması, fikrimizcə, daha məqsədəuyğun olardı:

– qlobal bazarların konyunkturunda baş verən dəyişikliklərin, eləcə də beynəlxalq əmək bölgüsünün şərtlərinin və dünyada kənd təsərrüfatı və ərzaq məhsulları istehsalçılarının ixtisaslaşma imkanlarının nəzərə alınması;

– ayrı-ayrı ərzaq məhsullarının dünya bazarındakı mövcud qiymət şərtlərinin, eləcə də dünya bazarından bu və ya digər məhsullara olan tələbin və təklifin səviyyəsinin öyrənilməsi;

– dünyada kənd təsərrüfatı xammalı istehsal edən ölkələrin və eləcə də emal sənayesi məhsulları ixrac edən ölkələrin rəqabət qabiliyyətli şərtlərinin araşdırılması;

– dünyada kənd təsərrüfatı və ərzaq məhsullarının ixracı üzrə ixtisaslaşmış ölkələrdə yerli kənd təsərrüfatı və emal məhsulları istehsalçılarının stimullaşdırılması ilə bağlı mövcud təcrübənin öyrənilməsi;

– beynəlxalq marketinq tədbirləri çərçivəsində gömrük, tarif və qeyri-tarif tənzimləmə şərtləri sahəsində təcrübənin öyrənilməsi;

– dünyada kənd təsərrüfatı və ərzaq məhsullarını idxal edən ölkələrin mövcud durumunun araşdırılması və istehlakçıların tələbatlarının öyrənilməsi.

## NƏTİCƏ

1. Aparılan araşdırmalar göstərir ki, bazar iqtisadiyyatının mühüm tərkib hissəsini təşkil edən biznes fəaliyyətinin inkişafı və ixracın təşviqi mexanizminin təkmilləşdirilməsi biznes mühitinin formalaşdırılmasından, əlverişli biznes və investesiya mühitinin yaradılmasından bilavasitə asılıdır. Biznes fəaliyyəti istehlakçıların zövqlərinə uyğun məhsul istehsalı və xidmətlər göstərilməsini özündə əks etdirməklə yanaşı, eyni zamanda mülkiyyətçinin və istehsalçının da davamlı olaraq mənfəət əldə etməsini və təşəbbüskarlıq fəaliyyətinin gerçəkləşdirilməsini nəzərdə tutur.

Biznes fəaliyyəti daxili və dünya bazarında baş verən dəyişikliklərə səmərəli reaksiya göstərmək iqtidarında olduğundan qlobal rəqabət mühiti biznes fəaliyyətinə, eləcə də biznes mühitinə təsir göstərir.

2. Biznes münasibətlərinin məcmusunu özündə əks etdirən biznes mühiti həm də qarşılıqlı əlaqəyə malik olan sahələrin inkişaf etdirilməsi ilə sıx əlaqədardır. Bu baxımdan biznes mühitinin yaxşılaşdırılmasının ən mühüm müvəffəqiyyət meyarlarından biri təsərrüfat subyektlərinin maddi resurslar bazarına sərbəst çıxış imkanlarının təmin edilməsi hesab oluna bilər.

3. Biznes mühitinin yaxşılaşdırılması və ixracın təşviqi proseslərinə qlobal aspektdən yanaşılması daha  doğru olardı. Bu baxımdan biznes mühiti ilə bağlı prosesin klassik tərifi demək olar ki, özünü doğrultmur. Belə ki biznes anlayışı daha çox məhsul istehsalı, məhsulların sərfəli şəraitlərlə reallaşdırılması prosesi kimi klassik mahiyyəti qloballaşma şəraitində daha geniş aspektdən özünü təsdiqləyir. Daha doğrusu, klassik yanaşma artıq demək olar ki, sosial-iqtisadi, hətta siyasi baxımdan demək olar ki, öz rolunu və əhəmiyyətini müəyyən dərəcədə azalır. Odur ki, qloballaşma şəraitində biznes fəaliyyətində məhsulların istehsaçılardan istehlakçılara çatdırılmasına qədər bütün mərhələlər nəzərdə tutulduğundan biznes mühitinin yaxşılaşdırılması nəinki kənd ərazilərinin, eləcə də şəhər əhalisinin və bütövlükdə ölkənin strateji maraqlarının qorunmasında əhəmiyyətli vasitə rolunu oynayır.

4. Biznes mühitinin yaxşılaşdırılmasında əmtəə istehsalçılarına subsidiyaların verilməsi mühüm rol oynayır. Problemə biznes mühitinin yaxşılaşdırılması baxımından yanaşdıqda hesab etmək olar ki, əmtəə istehsalçılarına verilən subsidiyalarda istehsalın intensivləşdirilməsi və modernləşdirilməsi faktorunun ön plana çəkilməsi, fikrimizcə, daha məqsədəuyğun olardı

5. Biznes mühitinin yaxşılaşdırılması ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə bilavasitə xidmət edir. Prosesə məqsəd və vasitə asılılığı baxımından yanaşdıqda hesab etmək olar ki, biznes mühitinin yaxşılaşdırılması iqtisadi təhlükəsizliyin təmin edilməsində qlobal təhditlərin aradan qaldırılmasında önəmli rol oynayır. Biznes mühitinin yaxşılaşdırılması hesabına daxili bazarın idxal kanallarından asılılığını  aradan qaldırmaq mümkün ola bilər.

6. İqtisadiyyatın davamlı inkişafı və iqtisadi təhlükəsizliyin təmin edilməsi, eləcə də ixracın həcminin artırılması baxımından biznes mühiti özünəməxsus funksiyalar yerinə yetirir ki, bu funksiyaları da sosial, iqtisadi, siyasi, təşkilati, institutsional aspektdə dəyərləndirmək mümkündür. Bundan əlavə maddi-texniki təchizat, marketinq və digər funksiyalar qloballaşma şəraitində aqrobiznesin yerinə yetirdiyi mühüm funksiyalar kimi səciyyələnir.

7. Qloballaşma şəraitində aqrar sahədə biznes mühitinə qlobal təhditlər daha da geniş xarakter daşımaqdadır. Qlobal təhditlərə, ilk növbədə daxili bazarda idxal kanallarının xüsusi çəkisinin yüksəlməsini, eləcə də əmtəə istehsalçılarının iqtisadi dayanıqlılığının aşağı düşməsini, təsərrüfat, maliyyə fəaliyyətinin rentabelliyinin yetərli olmamasını, eləcə də daxili bazarlara dempinq təzahürlərinin artmasını, aqrar sahənin biznes cəlbediciliyinin aşağı düşməsini və s. şamil etmək olar

8. Biznes mühitinin yaxşılaşdırılması həm ixracıın təşviqi ilə paralel şəkildə həyata keçirilməlidir. İxracın təşviqi dövlətin xarici siyasətinin mühüm tərkib hissəsi olmaqla, inkişafetməkdə olan ölkələrdə və o cümlədən neft istehsalı və ixracının üstünlük təşkil etdiyi ölkələrdə aktual xarakter daşıyır. İxracın təşviqi siyasəti qlobal bazarlara digər yerli məhsulların ixracını nəzərdə tutur ki, bu da qeyri-neft sektorunun inkişafı, alternativ ixracın stimullaşdırılması baxımından daha çox önəm daşıyır.

9. İxracın təşviqi ixracın stimullaşdırılmasının mühüm tərkib hissəsi olmaqla, xarici iqtisadi fəaliyyətin strukturunda zəruri keyfiyyət dəyişikliklərinin yaradılmasını özündə ehtiva edir.

10. Dünya ölkələrinin təcrübəsi göstərir ki, qloballaşma şəraitində ixracın təşviqi mexanizmində yerli ixracatçılara vəsaitin geri ödənilməsi prosesi, xüsusilə, mühüm əhəmiyyət kəsb edir. Bu təmayül ixraca təşviqin dəyər forması kimi də təsnifləşdirilə bilər. İxracatçılara geri ödəmələr ixracın stimullaşdırılmasında mühüm rol oynamaqla, dövlət büdcəsinin imkanlarından da bilavasitə asılıdır. Təbii ki, dünyanın inkişafetmiş ölkələrinin dövlət büdcəsinin gəlirləri daha yüksək olduğundan, onlar kənd təsərrüfatı və ərzaq məhsullarının ixracına daha çox vəsait yönəldirlər. Məsələn, ABŞ-da kənd təsərrüfatına ayrılan büdcə xərclərinin strukturunda kənd təsərrüfatı və

əmtəə istehsalçılarının və ixracçılarının dəstəklənməsinə yönəldilən vəsaitlər cəmi vəsaitlərin 6%-ni təşkil edir.

11. İxracın təşviqini stimullaşdırmaq məqsədilə əmtəə istehsalçılarının kredit resursları bazarının bərabərhüquqlu istifadə imkanlarının təmin edilməsinə xüsusi diqqət yetirilməlidir. Fikrimizcə, kredit resursları baxımından əlçatanlılıq təmin edilməlidir ki, bu da əmtəə istehsalçılarının maliyyə aclığı problemi ilə üzləşməməsinə gətirib çıxara bilər.

**Dissertasiya işinin mövzusuna dair dərc olunmuş elmi əsərlərin siyahısı:**


1. Аскеров Р.А. Государственная поддержка развития сельского хозяйства в Азербайджане // – Чебоксары: Повышение экономической эффективности современного агропромышленного комплекса теория, методология и практика". Материалы Всероссийской научно-практической конференции с международным участием, посвященной 90-летию со дня рождения профессора, доктора экономических наук Малютина Станислава Романовича, заслуженного деятеля науки РФ, заслуженного работника высшей школы Чувашской АССР, - 2019, 28-29 oktyabr, – стр.118-121.
2. Əsgərov R.Ə. Qlobal təhdidlər və aqrar sahədə biznes mühitinə təsir edən amillər // – Gəncə: ADAU, Elmi əsərlər, -2021, № 3, – s. 112-118.
3. Əsgərov R.Ə. Bazar konyukturunda baş verən tərəddüdlərin kənd təsərrüfatında biznes mühitinin inkişafına təsiri // – Bakı: "Audit" Elmi-pratiki jurnal, 2021, № 3 (33), – s. 72-79.
4. Əsgərov R.Ə. Milli iqtisadiyyatda biznesin inkişafının spesifik xüsusiyyətləri // – Bakı: "Kooperasiya" elmi-praktiki jurnal, 2021, № 3 (62), – s. 91-97.
5. Əsgərov R.Ə. Aqrar sahədə sahibkarlıq və biznes fəaliyyətinin spesifik xüsusiyyətləri // – Bakı: Kənd təsərrüfatının iqtisadiyyatı. Elmi-praktiki jurnal, 2022, № 1(39), – s. 63-70.
6. Əsgərov R.Ə. Azərbaycanda biznes fəaliyyətinin infrastruktur təminatı və onun spesifik xüsusiyyətləri // – Gəncə: "Müasir təbiət və iqtisad elmlərinin aktual problemləri", Beynəlxalq

Elmi Konfrans, 2022, V hissə – s.70-75.
7. Əsgərov R.Ə. Kənd təsərrüfatı məhsulları ixracının təşviqi mexanizmi və onun təkmilləşdirilməsi istiqamətləri // – Gəncə: ADAU. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr edilmiş “Qeyri-neft sektoru və qlobal ərzaq təhlükəsizliyi problemləri” mövzusunda respublika elmi praktiki konfransın materialları. -2023, 27-28 aprel, – s. 186-189.
8. Əsgərov R.Ə. Kənd təsərrüfatında biznes mühitinin inkişafına aqrar risklərin təsiri // – Bakı: Azərbaycan Kooperasiya Universiteti. “Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş “Heydər Əliyev və müasir türk dünyası” mövzusunda beynəlxalq elmi praktiki konfransın materialları, 2023, 02 may, – s. 469-474.
9. Asgerov R.A. The role of improving the business environment in agriculture in ensuring the country's food security // – Hindistan The Scientific Temper, 2024, Vol 15 (2), – pp. 2161-2168.
10. Əsgərov R.Ə. İxrac infrastrukturlarının formalaşdırılmasının ixracı təşviq siyasətinin həyata keçirilməsində rolu // – Bakı: Tikintinin iqtisadiyyatı və menecment jurnalı, 2024, № 4, – s. 396-405.
11. Əsgərov R.Ə. Müasir şəraitdə ixracın təşviqi siyasətinə təsir edən qlobal amillər // Bakı: “Kooperasiya” elmi-praktiki jurnal, 2024, № 4 (75), – s. 113-120.
12. Əsgərov R.Ə. Qloballaşma şəraitində ixracı təşviq siyasətinin reallaşdırılma-sının müasir meyilləri // – Bakı: İqtisadiyyat İnstitutu. “İqtisadi artım və ictimai rifah” elmi jurnal, 2024, № 4, – s. 117-124.
13. Əsgərov R.Ə. Biznes mühitinin yaxşılaşdırılmasında infrastruktur təminatının rolu // – Bakı: “Geostrategiya” beynəlxalq ictimai-siyasi, elmi nəzəri jurnal. -2024, № 6 (84), - Səh. 193-197.
14. Əsgərov R.Ə. Qlobal dəyər zəncirində biznes mühitinin yaxşılaşdırılmasını şərtləndirən amillər // – Gəncə: ADAU-nun elmi əsərləri, 2024, № 4, – s. 173-185.

Dissertasiyanın müdafiəsi 20 may 2026-cı il, saat $14^{00}$-da Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov küçəsi, 93

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 18 aprel 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.04.2026

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 42867 işarə

Tiraj: 100